# Herostratı unutmaq mümkünmü?

## *Mingəçevir Dövlət Dram Teatrının tamaşası haqqında düşünərkən...*

**"Herostratı unudun!" - Qriqori Qori tərəfindən yazılan bu tragikomediyada e.ə. 356-cı ildə qədim Efesdə baş verən real hadisə - Artemida məbədinin Herostrat adlı bir bazar alverçisi tərəfindən yandırılması haqqında danışılır. Məhz bu əməli ilə Herostrat öz adının tarixdə qalması məqsədilə şöhrətə sahib olmaq üçün bu qanlı məbədin yandırılması kimi radikal bir hərəkətə əl atır. Əsərdə bu hadisə yalnız fiziki akt kimi deyil, həmçinin insanın daxili ehtirasları, ambisiyaları, cəmiyyətlə olan münasibəti, etika və məsuliyyət kimi məsələlərin mərkəzində xüsusi olaraq qeyd edilməkdədir. Tragikomiya - dram və satira elementləri ilə yanaşı, həm ciddi məzmun (cinayət, məsuliyyət, ədalət), həm də ironik, satirik duyğularla təqdim olunur. Mingəçevir Dövlət Dram Teatrının səhnəsində maraqla izlədiyim "Herostratı unudun!" tragikomediyası da məhz müəllif ideyasına uyğun olaraq süjet xətti saxlanılmaqla burada Herostratın ambisiyası və planı - ad-san qazanmaq ümidi, məbədə qarşı hərəkət - məbədin yandırılması, cəmiyyətin, hakimiyyətin reaksiyası - edam istəkləri, qorxular, qərarvermə, məhkəmə, həbs, siyasi-etik konfliktlər xüsusilə facia və nəticə - həm şəxs üçün, həm cəmiyyət üçün ağır nəticələrin tam olaraq göstərilməsi maraqla izlənilir.**

Səhnə quruluşu Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının rejissoru Emin Mirabdullayevə məxsusdur. Quruluşçu rejissor məhz mövzu, motiv həmçinin ideyaya sadiq qalaraq şöhrət və yaddaş ehtiyacını səhnə traktofkasında obrazların dili ilə tam olaraq açıb göstərməyə müvəffəq ola bilmişdir. Həmçinin rejissor etika və vicdan konflikti kimi cinayət, məsuliyyət, cəmiyyət eləcə də fərdlər arasında əlaqə, forma quruluşlarını da maraqlı detallarla təqdim edə bilir. Tarixin yaddaşı və unudulmaq fikrinin də daha geniş bir formatda təqdimi rejissor yozumunda daha dəqiq ştrixlərlə göstərilməklə burada tarixi yaddaş ictimai qavrayış eləcə də hakimiyyətin yaddaş üzərində rolu geniş şəkildə müzakirə obyektinə çevrilə bilir.

Həmçinin rejissor maraqlı səhnə yozumunda hakimiyyətin cəmiyyəti idarə etmə üsulları, qorxu və nəzarət, xəbərdarlıq və cəzalar, insanların necə manipulyasiya edilməsi kimi motivləri də hökumət və güc münasibətləri zəminində hər bir obrazın ifası ilə uğurla təqdim edə bilir. Əsər şəxsi həmçinin ictimai qatlara bölünməklə bir neçə pərdə və səhnə, hadisələrin mərhələli inkişafı eləcə də şəxsiyyətin daxili düşüncələri ilə cəmiyyətin reaksiyaları paralel uğurlu səhnə quruluşunda maraqla izlənilir. Müəllif ideyasından irəli gələrək rejissor yozumunda əsərin ideyası universal və aktual olmaqla şöhrət arzusu, yaddaş ehtiyacı, cəmiyyətin reaksiyası məsələləri hər zaman insanları düşündürməklə dramaturji gərginlik hadisələrin inkişafı, kulminasiya nöqtələri, etik konfliktlərlə səhnədə cərəyan edən hadisələr eləcə də vizual simvollar, dekorativ üsullar böyük maraq doğurmaqdadır.

Təqdim edilən səhnə quruluşunda hər obraz yalnız öz funksiyasını yerinə yetirmir, həm də simvol olaraq pyesin mətni və tamaşaçının şüuruna təsir edə bilir. Belə ki, əsərin obrazları vasitəsilə müxtəlif sosial-təbii, əxlaqi və psixoloji təbəqələr göstərilməkdədir. Əsərin mərkəzində duran Herostrat obrazı tarixi şəxsiyyətə əsaslanır. Antik dövrlərdə Efes şəhərində yaşayan bu şəxs dünyada ad qazanmaq üçün Artemida məbədini yandırıb və bununla tarixə "şərəf" deyil, rüsvayçılıq simvolu kimi düşüb. Dramaturq Qorin isə bu tarixi faktı müasir fəlsəfi kontekstdə işləyərək insanın şöhrət hərisliyini, mənəvi boşluğunu və cəmiyyətin dəyərlər sistemini satirik şəkildə ifşa edir.

Aktyor Turqut Məsimlinin ifa etdiyi Herostrat obrazı əsərin baş qəhrəmanı olaraq sadə bazar alverçisidir, amma ad-san, şöhrət arzusu, yaddaşda qalmaq istəyi onu radikal addım atmağa sövq edir. Onun xarakterində daxili böhranlar, etika dilemması var: şöhrət uğrunda cinayət etmək, öz ehtiraslarını ödəmək, amma nəticədə özünün də, cəmiyyətin də məruz qalacağı faciəni bilmədən yaşamaq məcburiyyətini təqdim etməkdədir. Aktyorun ifasında Herostrat obrazı təkcə bir fərd deyil, həm də cəmiyyətin simvoludur. Turqut Məsimli öz maraqlı ifa tərzi ilə məhz obrazı müasir insanın faciəsi olaraq göstərilməsinə müvəffəq ola bilir.

Məhz Turqut Məsimlinin ifa tərzində Herostrat obrazı vasitəsilə bütün dəyərlər itir, etik və mənəvi ölçülər pozulur. O, həm gülməli, həm də dəhşətlidir. Gülməlidir, çünki o, özünü "dahi" hesab edir, halbuki atdığı addım mənasız vandalizmdir. Dəhşətlidir, çünki bu mənasızlıqla məqsədə çatmaqla o, doğrudan da tarixdə qalır. Aktyorun ifasında həm də əsərin ideyasından irəli gələrək Herostrata münasibətdə ikilidir. Belə ki, rəsmi olaraq onun adı qadağan edilir. Ancaq bu qadağa onu daha da məşhurlaşdırır. Beləcə cəmiyyət pisliyi qadağan etməklə deyil, onu anlamamaqla yaşadır. Bütün bu kimi sadalanan xüsusiyyət və keyfiyyətlər aktyor Turqut Məsimlinin ifasında maraqlı ştixlərlə təqdim edilir. Nəticə etibarı ilə aktyorun ifasında Herostrat öz eqosunun qulu olaraq bəşəriliyini məhv etməklə tarixin yaddaşında yaşamağı bacardığını maraqlı surət olaraq təqdim edə bilir.

Səhnə əsərində təqdim edilən Klementina Tissafernin (Efes hakiminin) arvadı surəti əsərdə ikinci dərəcəli, lakin simvolik və ideoloji cəhətdən mühüm obrazlardan biri hesab edilir. Bu obrazı aktrisa Lalə Abuşova ifa edir. Aktrisanın ifasında Klementina qadın təfəkkürünün, mənəvi korluğun, yalançı dəyərlərin və cəmiyyətin səthi düşüncə tərzinin satirik modeli olaraq təqdim edilir. Klementina zahirən zərif, mədəni, saray qadını təsiri bağışlayır. Amma onun daxili dünyası boş, mənəvi baxımdan kasıbdır. Məhz səhnədə təqdim edilən Klementina obrazı üçün əxlaq, ədalət, vicdan kimi anlayışlar formal xarakter daşımaqla həyatın mənasını görünüşdə axtarır. Məhz aktrisanın ifasında Klementina obrazı satirik aləmdə "zahiri gözəlliyin içindəki mənəvi çirkinliyi" maraqlı detalları ilə təcəssüm etdirir.

Aktrisa Lalə Abuşovanın ifasında təqdim edilən Klementina obrazı həmçinin Tissafern ilə münasibətlərdə sosial satiranı gücləndirməyə müvəffəq ola bilir. Aktrisanın ifasında Klementina həm də bütöv sistemin riyakarlıq və saxta dəyərlər dünyasının məhsulu kimi təqdim edilir. Aktrisa Klementina obrazı ilə həm də müasir qadının faciəsini maraqlı detallar vasitəsilə göstərə bilir.








## *Şöhrət ehtirasının dağıdıcı gücü və cəmiyyətin mənəvi deformasiyası...*

Aktyor Asim Məmmədovun ifa etdiyi Krissip obrazı bir növ qarışıq surət olaraq həm şəhər rəhbərinin, həm də cəmiyyətin səviyyəsindəki reaksiyaları təmsil edir. Onun hərəkətləri hadisələrin kulminasiya nöqtəsində dönüş nöqtəsi olaraq hesab edilir. O, zahirən ikinci dərəcəli obraz olaraq görünsə də, əsərin ideya-fəlsəfi yükünü daşıyan ən mühüm surətlərdən biri hesab edilir. Krissip Herostratın əksi, onun antitezidir. Tamaşa boyu bu iki obrazın qarşıdurması əslində yaxşı ilə pisin, mənəvi ilə maddinin, əbədiliklə keçiciliyin mübarizəsi olaraq təqdim edilir. Aktyorun ifasında Krissip obrazı ağıllı, savadlı, düşüncəli və mənəviyyatlı bir insan kimi təqdim edilir. Krissip obrazı cərəyan edən hadisələr fonunda mənəviyyatın və əsl humanizmin təmsilçisidir.

Aktyor Asim Məmmədovun ifasında Krissip obrazı həm tragik, həm də komik xarakter daşıyır. O, səhnədə mənəvi təmizliklə "rüsvay şöhrət" arasında sıxılaraq ağlının və hikmətinin dəyərsizləşməsi fonunda tragikomik ziddiyyət yaradır. Bu isə aktyorun ifa tərzində bir daha mənəvi insanın cəmiyyət qarşısında tənhalığının faciəvi ifadəsi kimi göstərilə bilir. O, Herostratın və hakimiyyətin qarşısında vicdanın, düşüncənin təmsilçisidir. Aktyorun maraqlı detallar vasitəsilə təqdim etdiyi obraz sanki yanmayan mənəvi məbədin keşişi olaraq da təqdim edilə bilir. Obraz aktyor Asim Məmmədovun ifasında ağlın və vicdanın təkliyidir. Bütün bu sadalananlar aktyor ifasının maraqlı ştrixləri ilə səhnədən uğurla izlənilir.



Tissafern (hakim) obrazı əsərin ictimai-fəlsəfi ideyasının açılmasında mühüm yer tutur. O, sadəcə Efesin hakimi deyil, həmçinin hakimiyyətin riyakarlığını, qorxaqlığını və mənəvi zəifliyini təmsil edən simvolik bir obrazdır. Aktyor Elvin Əkbərlinin səhnədə təqdim etdiyi bu obraz zahirən ədalətli, "qanuna sadiq", şəhərin qaydalarına nəzarət edən bir hakim olaraq təqdim edilir. Ancaq əslində isə aktyorun qorxaq, qərarsız və öz maraqlarını hər şeydən üstün tutan biri kimi təqdim edə bilməsi də obrazın mahiyyət etibarı ilə maraqla izlənilməsinə şərait yaradır. Aktyor səhnədə Tissafern obrazının öz "hakim şöhrəti"nin əsiri olduğunu maraqlı detalları ilə təqdim edir. Aktyorun ifası birmənalı şəkildə "kiçik despot", "böyük bürokrat", "mənəvi boşluğun rəsmi daşıyıcısı" kimi təsvir edilməklə göstərilir.

Elvin Əkbərlinin ifasında Tissafern satirik və eyni zamanda realist obraz olaraq maraqla baxılır. "Herostratı unudun!" tragikomediyasında Erita (rahibə) obrazı zahirən sakit, ikinci dərəcəli personaj kimi görünsə də, əsərin mənəvi-fəlsəfi ideyasının mərkəzində dayanır. Erita insan vicdanının, təmiz inamın və əxlaqi müqavimətin təcəssümüdür. Əslində Erita həm də məbədin ruhudur. Onun üçün Artemida məbədi təkcə daş və mərmər deyil, inancın və insanlıq dəyərlərinin mərkəzidir. Məbəd yandırıldıqda, Erita təkcə bir tikilinin deyil, öz iç dünyasının, imanının da dağıldığını hiss edir. O, maddi deyil, həm də mənəvi faciə yaşayır. Bu obrazı Xalq artisti Ella Yaqubova ifa edir. Aktrisa öz ifası ilə bir daha dəyərləri qoruyan insanlar çox vaxt susqun, təvazökar, amma dərin düşüncəli olduqlarını maraqlı ştrixlərlə təqdim etməyə müvəffəq olur. Erita obrazı Artemida ilə insanlar arasında körpü rolunu oynayaraq ilahi və insani təmizlik arasında vasitəçi olaraq maraqlı kontrastı təqdim edə bilir. Bu obraz inamın və mənəviyyatın sarsılmazlığı, səssiz müqavimət ideyası, insanın mənəvi ölümsüzlüyü kimi bir neçə mühüm fəlsəfi məqamı ifadə etməyə müvəffəq ola bilir.

Tamaşa boyu maraqla təqdim edilən surətlərdən bir də Kleon obrazı Efiop şəhər dövlətinin ali hakimiyyət strukturlarından birini təmsil edən şəxsdir. O, ağlabatan, rasionallaşdıran, dövlətin sabitliyini qorumağa çalışan, lakin eyni zamanda bürokratlaşdırılmış və kənar təsirlərə qarşı hədsiz həssas olan bir məmur tipini təcəssüm etdirir. Kleon nə tam mənada mənfi, nə də tam müsbət bir qəhrəmandır. Əslində o, cəmiyyətin ideoloji aparatını simvolizə edən tragikomik bir fiqurdur. Kleon daha çox dövlət idarəçiliyinin "ağıl və qayda" tərəfini təcəssüm etdirir. Onun bütün fəaliyyəti nizam-intizama və qaydalar sisteminə söykənir. Lakin dramaturq Qorinin tragikomik yanaşması nəticəsində bu qaydalar çox zaman məntiqsiz, hətta absurda yaxın görünür. Bu baxımdan, Kleon bürokratik düşüncənin ifrata varmış təcəssümüdür. Bu obrazı aktyor Paşa Salmanov ifa edir. Aktyor səhnədə ifası ilə Herostratın məbədi yandırmaqla ad qazanmaq istəyinə qarşı çıxmaqda cəmiyyətin "sağlam düşüncə" tərəfini təmsil etməsini maraqlı ştrixləri ilə göstərə bilir. Onun ifası səhnədə rejissor traktofkasına uyğun olaraq müdrik kimi görünən, lakin əslində məntiqi absurda çarpan qərarları tragikomik effekt yarada bilməsinin maraqlı tərəfləri olaraq açıb göstərə bilir. Həmçinin aktyorun ifasının səhnə davranışlarında dövlət idarəçiliyinin qorxu psixologiyası da aydın şəkildə görünür.

Eləcə də Nəzarətçi Asim Əmirov, Teatr işçisi Hüseyn Mustafayev, 1-ci, 2-ci və 3-cü Efesli surətlərində Firuz Hacıyev, Cavidan Abdullayev və Rəvan Adil də tamaşa boyu maraqla izlənilməkdədirlər. Qeyd edim ki, tamaşanın quruluşçu rəssamı Pakizə Adilbəyli, geyim üzrə rəssamı isə Aygül Ağakişiyevadır. Tamaşanın musiqi tərtibatı isə Emin Mirabdullayevə məxsusdur.

Ümumiyyətlə, bu tragikomediya insan psixologiyasını, cəmiyyətin mənəvi deformasiyasını və şöhrət ehtirasının dağıdıcı gücünü açır, maraqla baxılan bir səhnə əsəri olaraq satirik itiliyi obrazların psixoloji dərinliyi sayəsində həm gülüş, həm də acı həqiqət bir arada təqdim edilir.

**Anar Ərtoğrul Burcəliyev**
**Teatrşünas-tənqidçi**